# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

**YAP nümayəndə heyəti Çində səfərdədir**



5

## "Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın"



2

№ 048 (7458)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 iyun 2026-cı il.
Qiymәti 1 manat

# 108 illik tarixi yol: Qalib Azərbaycan Ordusu!



3

Ermənistan Brüssellə Moskva arasında...




6

**Kənd təsərrüfatının inkişafında yeni dövr başlayır**



7

**Niyə bəzi xəstəliklər uzun müddət simptomsuz qalır?**



8

## İslamofobiya fəlakəti bəşəriyyətin "qapısını döyür"...



5

## "Heydər Əliyev məktəbi" layihəsinin ikinci mərhələsinin açılış mərasimi keçirilib



4

# "Dünyada Azərbaycan-Türkiyə qardaşlığının nümunəsi yoxdur"

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı TBMM sədrinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirakının önəminə toxundu.***

Gələcəkdə ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində digər tədbirlərin də keçiriləcəyini deyən Prezident İlham Əliyev İslam ölkələri arasında əlaqələri daha da genişləndirməyin əhəmiyyətini vurğuladı. Qəbula və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edən Numan Kurtulmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq Bakıda keçirilən tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq, dövlətimizin başçısının tədbir iştirakçılarına ünvanlandığı müraciətin zəngin məzmunlu olduğu dedi.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunularaq, ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edildi, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirildi və bu, birgə sərvətimiz kimi qiymətləndirildi. Ölkələrimiz arasında dostluğun və qardaşlığın Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğu vurğulandı. Görüşdə qanunverici orqanlarımız arasında mövcud əməkdaşlıq və onun daha da genişləndirilməsinin perspektivləri müzakirə olundu.

# "Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev son vaxtlar qardaş İran xalqının çox böyük əziyyətlər çəkdiyini vurğuladı, müharibədə həlak olanlara bir daha Allahdan rəhmət dilədi.***

Müharibə dövründə Azərbaycan xalqının və dövlətinin İran xalqı və dövlətinin yanında olduğunu deyən Prezident İlham Əliyev özünün İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefonla danışıqlarını, həmçinin müxtəlif səviyyələrdə digər təmasları və həmrəylik nümunələrini bunun əyani göstəricisi kimi qiymətləndirdi. Müharibənin dayandırılmasının Azərbaycan tərəfindən sevinc hissi ilə qarşılandığını vurğulayan dövlətimizin başçısı bununla bağlı ölkəmiz tərəfindən dərhal rəsmi bəyanatın verildiyini xatırladı.

"Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın", - deyən Prezident İlham Əliyev həm Azərbaycanın, həm də İranın vaxtilə müharibələrdən əziyyət çəkdiklərini qeyd etdi.

Məhəmməd Baqir Qalibafın ölkəmizə əvvəlki səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı onun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev bu tədbirin İslam həmrəyliyinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirərək, gələn il ölkəmizin İƏT-in Zirvə Görüşünə ev sahibliyi edəcəyini dedi və bununla bağlı artıq hazırlıq işlərinin başlanıldığını qeyd etdi.



Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Baqir Qalibafın səfərinin, eyni zamanda, ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafına da toxundu. Prezident İlham Əliyevlə görüşdən məmnunluğunu bildirən qonaq İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırmağı xahiş etdi. Məhəmməd Baqir Qalibaf İranın çətin günlərində Prezident İlham Əliyev, Azərbaycan dövləti və xalqı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Qonaq, eyni zamanda, İranın ölkəmizdəki səfirliyinə gələrək, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsinə, həmçinin Ayətullah Seyid Müctəba Hüseyni Xameneiyə İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına təşəkkür etdi.

Müharibənin böyük dərd və faciə olduğunu deyən qonaq həmin dövrdə ölkəmizin İranla mehriban qonşuluq münasibətlərinə sadiq qaldığını, humanitar yardımını əsirgəmədiyini, Azərbaycan xalqının İranın yanında olduğunu vurğuladı və qeyd etdi ki, bu, İran xalqının yaddaşında əbədi qalacaq.

Azərbaycanla İranın çətin günlərdə də daim bir-birinin yanında olduqlarını deyən Məhəmməd Baqir Qalibaf bunu ölkələrimizin birliyinin və həmrəyliyinin daha bir nümunəsi kimi qiymətləndirdi. Qonaq bu müharibənin, eyni zamanda, İrana müsəlman ölkələri ilə təmasların nə dərəcədə vacib olduğunu göstərdiyini bildirdi. Məhəmməd Baqir Qalibaf qeyd etdi ki, İran müharibə dövründə dostunu və düşmənini tanıyıb. Bu xüsusda dost ölkə kimi Azərbaycan İranın yanında olub. Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin gələcəkdə daha da dinamik inkişafına əminlik ifadə olundu, Ağbənd-Kələlə körpüsünün tikintisinin artıq başa çatdırıldığı və İran ərazisindən keçən Araz dəhlizinin də regionda nəqliyyat imkanlarının artırılmasına xidmət edəcəyi məmnunluqla vurğulandı.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, o cümlədən parlamentlərarası əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

# 108 illik tarixi yol: Qalib Azərbaycan Ordusu!



## Prezident İlham Əliyev: "Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür"

***Bu gün qüdrətli Azərbaycanın Qalib və Şanlı Ordusunun yaranmasından 108 il ötür. 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikasının cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük nailiyyətlərə imza atmışdı. Görülən işlər sırasında ordu quruculuğu sahəsindəki tədbirlər böyük əhəmiyyət kəsb edir.***

Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yarandı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa zaman məsafəsində Azərbaycanda milli ordu quruculuğunda uğurlar əldə edildi. Bu gün həmin tarixdən bir əsrdən artıq zaman 108 il ötür.

Sovet dövründə, Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanda hərbi-təşkilati işlərə nəzər salsaq görərik ki, Azərbaycan gənclərinin hərbi xidmətə hazırlanması, onların xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması məqsədi ilə ardıcıl işlər görülüb. Hər il Azərbaycandan təxminən 60 min gənc hərbi xidmətə çağırılırdı. Lakin onların çox az hissəsi xüsusi ixtisaslar öyrədən hərbi hissələrə yola salınırdı. Gənclərin böyük əksəriyyəti isə tikinti və xidmət hərbi hissələrinə göndərilirdi. Respublika məktəblərində rus dilinin tədrisinə diqqət artırıldı, Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi fəaliyyətə başladı. Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbinin açılması görülən işlərin davamı və zirvəsi idi. Hələ 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail olundu. Ulu Öndər Heydər Əliyev azərbaycanlı gəncləri SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərirdi. Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetişdirdiyi milli zabit kadrlarımızın müstəsna rolu olub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ermənistan ilə müharibə vəziyyətində idi. O zaman Azərbaycana rəhbərlik edən şəxslər Silahlı Qüvvələr yarada bilmədilər. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, o zamankı respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün ciddi səy göstərmirdi. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi. Bu dövrdən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur. Özünümüdafiə dəstələri və könüllü batalyonlar ləğv edildi və beləliklə, Ulu Öndər Heydər Əliyev vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusunu yaratdı. 1998-ci ilin mayında Prezident Heydər Əliyevin Fərmanı ilə iyunun 26-sı Cümhuriyyətin varisi olan müstəqil Azərbaycan Respublikasında Silahlı Qüvvələr Günü elan edildi. Bu gün sabitlik, iqtisadi inkişaf və güclü müasir ordunun formalaşdırılması müasir Azərbaycanın əsas göstəricilərindəndir. Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdır. Ulu Öndərin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır.

### "UĞURLU İQTİSADİ SİYASƏTİMİZ BİZƏ İMKAN VERİR Kİ, ORDU QURUCULUĞUNA, YENİ SİLAHLARIN, YENİ TEXNİKALARIN ALINMASINA, YENİ DÖYÜŞ BİRLƏŞMƏLƏRİNİN YARADILMASINA LAZIMİ DƏRƏCƏDƏ DÖVLƏT VƏSAİTİ AYRILSIN"

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. "Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın", - deyə Prezident bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Azərbaycan milli hərbi sənaye kompleksi yaradıb. Azərbaycanın hərbi texnologiyaları bir çox aparıcı hərbi sənaye sərgilərində təqdim olunur. Vətən Müharibəsindəki qələbədən sonra isə ümumiyyətlə xarici dövlətlər Azərbaycanın hərbi islahatlarına, hərbi sənaye kompleksinə böyük maraq göstərir. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

### "VƏTƏN MÜHARİBƏSİ AZƏRBAYCAN DÖVLƏTİNİN TAM ZƏFƏRİ İLƏ YEKUNLAŞMIŞDIR"

Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğu bütün dünyaya nümayiş etdirildi. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə öz gücünü göstərdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inamımız sonsuz idi. Nəhayət, həmin zamana şahidlik etdik. "Mən işğal dövründə dəfələrlə deyirdim ki, bizim üçün birinci vəzifə ərazimizin bərpasıdır, ərazi bütövlüyümüzün təmin edilməsidir. Deyirdim ki, əgər danışıqlar nəticə verməsə, biz güc tətbiq edərək öz tarixi torpaqlarımızı azad edəcəyik. Əfsuslar olsun ki, mənim sözlərimə bəziləri laqeyd yanaşdı. Ermənistan və onun xarici havadarları hesab edirdilər ki, onlar bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaq. Biz onların məkrli planlarını alt-üst etdik. Müharibəyə hazırlaşdıq, düşmənə elə sarsıdıcı zərbə vurduq ki, düşmən bu günə qədər özünə gələ bilmir", - deyə Cənab Prezident bildirib. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. "Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür", - deyə Prezident bildirib.

### HAQQIN VƏ ƏDALƏTİN ZƏFƏRİ

Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə formalaşdırılmış Azərbaycan Silahlı Qüvvələrinin bir əsrdən artıq ötən tarixinin ən pik nöqtəsində Vətən müharibəsində qazanılmış möhtəşəm Qarabağ Zəfəri dayanır. Qəhrəman zabit və əsgərlərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə cəmi 44 gündə 30 illik işğala və uydurulmuş miflərə son qoyaraq Azərbaycanı qalib ölkəyə çevirdilər.

2023-cü ilin sentyabrında Qarabağda keçirilmiş və 24 saat tamam olmadan düşmənin ağ bayraq qaldırmağa məcbur olduğu lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir Yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Qəhrəmanlıq dastanını yazan rəşadətli Ordumuzun Vətən müharibəsində nümayiş etdirdiyi hərb mədəniyyəti, beynəlxalq və humanitar qanun və normalara riayət etməsi dünya hərb tarixinə örnək səhifələr kimi yazıldı. Döyüş meydanında əməli təsdiqini tapan "Qarabağ Azərbaycandır və nida" həqiqəti milli birliyimizin, haqqın və ədalətin zəfəri oldu. Azərbaycanın haqq və ədalət uğrunda apardığı Vətən müharibəsi, onun taktika və strategiyası, istifadə edilən müasir hərbi texnologiyaları bu gün bir sıra inkişaf etmiş ölkələrdə və beynəlxalq təşkilatlarda tanınmış hərbi ekspertlər tərəfindən müasir hərb elminin yeni səhifəsi adlandırılır. Azərbaycan Ordusu hərbi əməliyyatları beynəlxalq humanitar hüquqlara uyğun apardı və mülki obyektləri, mülki şəxsləri nişan almadı. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Vətən müharibəsində qazanılan ZƏFƏR bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu. İkinci Dünya Müharibəsindən sonra baş vermiş müharibələrdə demək olar ki heç kim tərəfdən tam qələbə əldə edilməyib. Bu məqam qələbəmizin xüsusiyyətini artırır.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsinin açılış mərasimi keçirilib



**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində reallaşdırılan “Heydər Əliyev məktəbi” layihəsinin ikinci mərhələsinin açılış mərasimi olub. Əvvəlcə İsmayıllı şəhərində müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib. İsmayıllı rayon Heydər Əliyev Mərkəzində keçirilən açılış mərasimindən öncə Lahıc və İvanovka folklor kollektivlərinin ifasında musiqi nömrələri təqdim olunub.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi



uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov layihənin ilk gününün “Dövlət gənclər siyasəti” mövzusuna həsr olunduğunu bildirib. O qeyd edib ki, “Heydər Əliyev məktəbi” gənc partiya üzvlərinin Ümummilli Liderin zəngin dövlətçilik irsini dərindən mənimsəməsi məqsədilə yaradılmış mühüm platformadır. Layihənin əsas məqsədi gənclərə Heydər Əliyev ideyalarını aşılamaq, onların liderlik bacarıqlarını inkişaf etdirmək və gələcəyin güclü kadrları kimi formalaşmalarına dəstək olmaqdır.

Zaur Muradov vurğulayıb ki, proqram Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarından olan fəal gəncləri bir araya gətirərək onların həm bilik və bacarıqlarının artırılmasına, həm də qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişlənməsinə xidmət edir. Layihə çərçivəsində iştirakçıları interaktiv dəyirmi masalar, intellektual yarışlar, komanda oyunları və İsmayıllının tarixi-mədəni məkanlarına ekskursiyalar gözləyir.

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təcrübəsi, gənclər siyasətinin əsas istiqamətləri və tarixi varislik məsələlərindən bəhs edib. O bildirib ki, Heydər Əliyev hər zaman gənclərə böyük etimad göstərərək Azərbaycanın gələcəyini məhz onlara etibar edib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən dövlət gənclər siyasəti öz müsbət nəticələrini verməkdədir.

Arif Rəhimzadə “Heydər Əliyev məktəbi” layihəsinin gənclərin dövlətçilik ənənələrinə bağlı, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi formalaşmasına mühüm töhfə verdiyini vurğulayıb. O, müxtəlif regionlardan olan gənclərin bir araya gəlməsinin əhəmiyyətini qeyd edərək onların fəal, təşəbbüskar və lider ruhlu olmalarının vacibliyini diqqətə çatdırıb. İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dövlət gənclər siyasətinin regionlarda uğurla həyata keçirildiyini vurğulayıb. O bildirib ki, İsmayıllının zəngin multikultural mühiti və tarixi-mədəni irsi layihə iştirakçıları üçün xüsusi əhəmiyyət daşıyır.



Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə gənclərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradılıb. Lahıc və İvanovka kimi qədim mədəniyyət mərkəzlərinin irsi ilə yaxından tanış olacaq gənclər bu layihə vasitəsilə həm intellektual potensiallarını artıracaq, həm də Azərbaycanın multikultural dəyərlərini daha yaxından mənimsəyəcəklər.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik strategiyasında gənclər siyasətinin xüsusi yer tutduğunu bildirib. O vurğulayıb ki, hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu strateji kurs gənclərin ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında fəal iştirakını təmin edir. Bahar Muradova milli-mənəvi dəyərlərə və dövlətçilik ənənələrinə sadiq gənc nəslin formalaşdırılmasının vacibliyinə diqqət çəkərək, “Heydər Əliyev məktəbi” kimi layihələrin regional gənclərin potensialının üzə çıxarılması, vətəndaşlıq mövqeyinin möhkəmləndirilməsi və liderlik bacarıqlarının inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədov çıxışında Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının gənclərin inkişafına daim xüsusi önəm verdiyini vurğulayıb. O qeyd edib ki, partiya sıralarında birləşən gənclər dövlətçilik ənənələrinə sədaqətləri və yüksək ictimai fəallıqları ilə seçilirlər.

Rafael Gülməmmədovun sözlərinə görə, “Heydər Əliyev məktəbi” layihəsi gənc partiya üzvlərinin ideoloji hazırlığının gücləndirilməsi, onların partiyanın fəaliyyətində və müxtəlif regional layihələrdə daha fəal iştirakının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Tədbirdə çıxış edən gənc partiya fəalları Pəri İbrahimova və Abbas İsrafilov Heydər Əliyevin zəngin siyasi və mənəvi irsinin gənclərin vətənpərvər və məsuliyyətli vətəndaş kimi formalaşmasında mühüm rol oynadığını bildiriblər. Açılış mərasimindən sonra gənclər arasında komanda şəklində idman oyunları keçirilib, əyləncə proqramları təşkil olunub.

# “Azərbaycançılıq məfkurəsi və milli dəyərlər sisteminin inkişafı”

***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində İsmayıllı rayonu ərazisində yerləşən “Qaya” istirahət mərkəzində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin üçüncü günündə gənc fəallarla “Azərbaycançılıq məfkurəsi və milli dəyərlər sisteminin inkişafı” mövzusunda görüş keçirilib.***






Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə çıxış edən YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Hikmət Babaoğlu və Elnarə Akimova, YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyeva “Heydər Əliyev Məktəbi” layihəsinin əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası kimi formalaşdırılan azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən, milli kimliyimizi qoruyan və dövlətimizin ideoloji dayaqlarını möhkəmləndirən sarsılmaz təməldir. Vurğulanıb ki, bu məfkurə ölkəmizdə multikulturalizm və tolerantlıq ənənələrinin inkişafına xidmət etməklə yanaşı, dövlət suverenliyimizin də etibarlı ideoloji təminatına çevrilib.

Qeyd olunub ki, müasir qloballaşma dövründə milli-mənəvi dəyərlərin, ailə institutunun, dilimizin və mədəniyyətimizin qorunub saxlanılması gəncliyimizin ən ümdə vəzifələrindən biridir. Ümummilli Liderin formalaşdırdığı və bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilən dövlət siyasəti məhz milli köklərə bağlı, eyni zamanda müasir dünyagörüşünə sahib intellektual nəslin yetişdirilməsinə xidmət edir.

Tədbirdə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən və ölkəmizin ərazi bütövlüyünün tam bərpasından ətraflı bəhs edilib. Vurğulanıb ki, bu möhtəşəm nailiyyət azərbaycançılıq məfkurəsi ruhunda yetişən gənclərin fədakarlığı, xalqımızın sarsılmaz milli birliyi və vətənə bağlılığı sayəsində mümkün olub. Qeyd edilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi şanlı Qələbə təkcə hərbi gücün deyil, həm də uzun illər ərzində formalaşmış milli-mənəvi dəyərlərin, vətənpərvərlik tərbiyəsinin və xalq-ordu birliyinin təntənəsidir.

Vurğulanıb ki, qazanılmış tarixi Zəfərin qorunması, onun gələcək nəsillərə ötürülməsi, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində və “Böyük Qayıdış” proqramında fəal iştirak etmək YAP gənclərinin mühüm vətəndaşlıq missiyasıdır. Partiya fəalları informasiya məkanında, elmi-intellektual platformalarda milli maraqların müdafiəsi istiqamətində daha fəal olmalı, azərbaycançılıq məfkurəsinin rəqəmsal müstəvidə təbliğinə öz töhfələrini verməlidirlər.

Müzakirələr zamanı layihə iştirakçıları Ayşən Quliyeva, Pəri İbrahimova, Nicat Bayramov, Maysaray Səfərova, Turqay Daşdəmirli və digər gənclər mövzu ilə bağlı fikir və təkliflərini bölüşüblər. Panel müzakirələrinin ardından yay məktəbinin proqramına uyğun olaraq gənclərin praktiki bacarıqlarını, komanda işinin və strateji düşüncə qabiliyyətlərinin inkişafına yönəlmiş fəaliyyətlər təşkil olunub.

İlk olaraq iştirakçılar arasında “Mənim xəyalımdakı ağıllı kənd” mövzusunda Yaradıcılıq Atelyesi (Workshop) müsabiqəsi keçirilib. “Şəhərsalma və Memarlıq İli”nin ruhuna uyğun təşkil olunan müsabiqədə gənclər komandalar şəklində birləşərək işğaldan azad edilmiş ərazilərdə tətbiq oluna biləcək innovativ, ekoloji cəhətdən dayanıqlı və texnoloji əsaslı kənd modelləri hazırlayıblar. İştirakçılar öz memarlıq və urbanizasiya baxışlarını təqdim edərək hazırladıqları layihələri nümayiş etdiriblər.



Daha sonra proqram çərçivəsində gənclərin analitik təfəkkürünü və beynəlxalq münasibətlər sahəsində biliklərini inkişaf etdirməyə yönəlmiş “Diplomatik Danışıqlar” simulyasiya oyunu keçirilib. Simulyasiya zamanı iştirakçılar müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri qismində çıxış edərək siyasi, iqtisadi və ekoloji xarakterli böhran situasiyalarının həlli yollarını müzakirə ediblər. Təqdimatlardan sonra yay məktəbinin iştirakçıları üçün Azərbaycanın qədim tarix və mədəniyyət mərkəzlərindən biri olan Basqal qəsəbəsinə ekskursiya təşkil edilib. Azərbaycanın qədim ipəkçilik və kəlağayıçılıq ənənələrinin yaşadıldığı Basqal ilə tanışlıq gənclər tərəfindən böyük maraqla qarşılanıb. Günün sonunda YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov gənclərlə görüşərək fikir mübadiləsi aparıblar.





# YAP nümayəndə heyəti Çində səfərdədir

***Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib. SİA xəbər verir ki, nümayəndə heyəti ÇKP Şanxay Partiya Məktəbində seminarların açılış mərasimində iştirak edib.***

Tədbirdə çıxış edən ÇKP Şanxay Partiya Məktəbinin direktorunun müavini Syun Yun Azərbaycan ilə Çin arasında çoxşaxəli əlaqələrin dinamik inkişafı çərçivəsində partiyalararası əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, seminarların partiya quruculuğu, kadr hazırlığı, səmərəli idarətmə kimi sahələrdə fikir və təcrübə mübadiləsi baxımından faydalı olacağına əminliyini ifadə edib. Tədbirdə çıxış edən YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin müdrik siyasəti sayəsində iki ölkə arasındakı münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. Onun sözlərinə görə, bu prosesdə partiyalararası əlaqələr xüsusi rol oynayır: "Hakim partiyalar - YAP ilə ÇKP arasında qarşılıqlı əlaqələr siyasi dialoqun hərəkətverici qüvvəsidir".

Çinin modernləşmə və effektiv idarəetmə sahəsindəki təcrübəsinin bütün dünyada maraqla izlənildiyini deyən V.İskəndərov səfərin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. Nümayəndə heyəti "Ənənəvi Çin mədəniyyəti və "Bir kəmər, bir yol" təşəbbüsü: bəşəriyyətin ortaq taleyinin qurulması yolları" və "Pudun rayonunun inkişafı və dünyaya açılması" mövzularında seminarlarda iştirak edib. Həmçinin nümayəndə heyətinin Şanxay şəhərində yerləşən ÇKP-nin 1-ci qurultayının ev muzeyinə ziyarəti təşkil olunub.






# “Heydər Əliyev irsi: keçmişdən gələcəyə memarlıq körpüsü”

***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində reallaşdırılan İsmayıllı rayonu ərazisində yerləşən “Qaya” istirahət mərkəzində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin ikinci günündə gənc fəallarla “Heydər Əliyev irsi: keçmişdən gələcəyə memarlıq körpüsü” mövzusunda görüş keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Görüşdə iştirak edən YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Milli Məclisin deputatı Asif Əsgərov və YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradovun çıxışlarında bildirilib ki, Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərindən başlayaraq Azərbaycanda böyük bir memarlıq və quruculuq hərəkatının təməlini qoyub. O, memarlığı sadəcə binaların inşası kimi deyil, xalqın daşlaşmış tarixi yaddaşı, milli mənsubiyyət pasportu və milli azadlıq ideyalarının vizual təzahürü kimi dəyərləndirirdi. SSRİ dönəminin ideoloji sıxıntılarına baxmayaraq, məhz Heydər Əliyevin cəsarəti və qətiyyəti sayəsində Bakıda və rayonlarımızda ucaldılan abidələrdə, inzibati binalarda milli memarlıq elementləri və ornamentləri ön plana çıxarılmış, respublikamızda unikal bir milli arxitektura məktəbi formalaşdırılmışdır.

Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə milli memarlıq ənənələrinin qorunmasına və inkişafına xüsusi diqqət yetirib. Ümummilli Lider şəhərsalma prinsiplərini xalqın tarixi yaddaşının və mədəni kimliyinin gələcək nəsillərə ötürülməsi missiyası kimi formalaşdırıb. Ölkəmizin qədim şəhərlərindən olan Gəncənin tarixi simasının qorunması, eləcə də İsmayıllı rayonunun Lahıc və Basqal kimi unikal mədəniyyət və sənətkarlıq mərkəzlərinin bərpası məhz bu uzaqgörən dövlətçilik konsepsiyasının məntiqi nəticəsidir. Çıxışlarda Heydər Əliyevin Bakının tarixi mərkəzinin - İçərişəhərin, Şirvanşahlar sarayının, habelə Gəncə, Şəki, Şuşa və Naxçıvan kimi qədim şəhərlərimizin tarixi-mədəni qoruqlarının mühafizəsinə verdiyi müstəsna önəm də xatırladılıb.

Diqqətə çatdırılıb ki, Ulu Öndərin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə davam etdirilən regionların sosial-iqtisadi inkişafı strategiyası bölgələrimizin simasını tamamilə modernləşdirib. İsmayıllının Lahıc və Basqal kimi qədim sənətkarlıq zonalarının qorunması bu diqqətin bariz nümunəsidir.

Bu gün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda ucaldılan müasir infrastruktur, reallaşdırılan “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələri, əslində Heydər Əliyevin yarımçıq qalmış arzularının və Onun gələcəyə uzanan böyük memarlıq körpüsünün ən parlaq təzahürüdür. Bildirilib ki, gənc YAP fəalları bu tarixi quruculuq və regional inkişaf prosesinin ön sıralarında yer almalı, öz intellektual potensialları ilə dövlətimizə xidmət etməlidirlər. Görüşdə gənc fəallardan Nicat Bayramov, Ayşən Quliyeva, Turqay Daşdəmirli və başqaları mövzu ilə əlaqədar öz fikirlərini bölüşüblər. Sonra görüş iştirakçılarının sualları cavablandırılıb. Layihədə iştirak edən gənclər daha sonra İsmayıllı rayonunun qədim sənətkarlıq və memarlıq mərkəzi olan Lahıc qəsəbəsinə ekskursiya edərək qəsəbənin qədim küçələrini gəzib, misgərlik, xalçaçılıq və digər xalq sənətlərinin yaşadıldığı emalatxanalara baş çəkiblər. Səfər çərçivəsində gənclərə Lahıcın daxil olduğu mədəni irsin dövlət tərəfindən qorunması və bərpası istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib.

Daha sonra yay məktəbi iştirakçılarının intellektual hazırlığını, dünyagörüşünü və natiqlik bacarıqlarını inkişaf etdirmək məqsədilə “History Brainstorm” intellektual oyunu və “Gənc Spiker” debat turniri təşkil olunub. Oyunda fəalların Azərbaycanın şanlı tarixi, mədəniyyəti və dövlətçilik salnaməsinə dair bilikləri yoxlanılıb, müasir çağırışlar, şəhərsalma trendləri və gənclər siyasəti mövzularını əhatə edən debat formatlı turnirdə fəallara öz komanda işi bacarıqlarını nümayiş etdirmək üçün geniş imkanlar yaradılıb.

# İslamofobiya fəlakəti bəşəriyyətin “qapısını döyür”...



*Mətləb Salahov: Ərazilərimizdə 65 məscidi məhv edən Ermənistan islamofobiya üçün ən bariz “nümunədir”*

"İslamofobiya artıq sözün əsl mənasında bəşəriyyət üçün təhlükəli proses halını alıb. İnsanların dini inanclarına görə təqib edilməsi, ayrı-seçkilik yaradılması sivilizasiya və inkişafdan dəm vuran bir çox Avropa ölkələri üçün xəcalət nümunəsidir. Son bir neçə il ərzində Avropa qitəsində Məhəmməd Peyğəmbəri (s.ə.s) təhqir edən hərəkətlər, müqəddəs "Qurani-Kərim"in yandırılması, məscidlərə və ibadət yerlərinə qarşı hücumlar, müsəlman qəbiristanlıqlarının vandalizmə məruz qalması və digər hərəkətlər müsəlmanların hisslərini təhqir etməyə yönəlmiş və sayı getdikcə artan anti-müsəlman hadisələri sırasındadır. "Söz azadlığı" adı altında islam dininə və müsəlmanlara qarşı hücumlar isə qəti şəkildə qəbuledilməzdir".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O diqqətə çatdırıb ki, hazırda əksər Avropa ölkələrində müsəlmanlar institusional ayrı-seçkilik və sosial-iqtisadi məhdudiyyətlərlə üzləşirlər. "Bu cür yanaşmalar müsəlmanların damğalanmasında və əsassız irqi profilləşdirilməsində özünü göstərir və qərəzli media təmsilçiliyi, bəzi siyasi liderlərin antimüsəlman ritorikası və siyasəti ilə gücləndirilir. Xüsusilə bir məqama diqqət yetirməliyik. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, bu gün qlobal təhlükəyə, ümumbəşəri bəlaya çevrilmiş islamofobiyaya qarşı nəinki mübarizə aparılmır, hətta bir sıra ölkələrdə onun yayılması təşviq edilir".

***Afət Tahirqızı***

# Ermənistan Brüssellə Moskva arasında...




***Avropa Komissiyası Rusiya Federasiyasının ölkənin özəl sektoruna tətbiq etdiyi məhdudiyyətlərin təsirini azaltmaq üçün Ermənistana 34 milyon avro ayırıb. AB-nin Ermənistandakı nümayəndəliyinin mətbuat xidməti vurğulayıb ki, bu maliyyə dəstəyi Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenin elan etdiyi yardım paketinin ilk tranşıdır. Buraya Yerevanın iqtisadi dayanıqlığını gücləndirmək üçün ticarətin asanlaşdırılması tədbirləri daxildir.***

ANALİZ

Tərəflər AB-Ermənistan Zirvə görüşündə əldə edilən razılaşmalara əsaslanaraq əməkdaşlığı davam etdirəcəklər. Onlar həmçinin erməni istehsalçıları üçün bazara çıxışı genişləndirməklə əlaqələri dərinləşdirəcəklər. Məhdudiyyətlərdən təsirlənən sektorlar, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalı, çiçəkçilik və digər ixrac yönümlü sənaye sahələri ticarətin asanlaşdırılması təşəbbüsləri və s. vasitəsilə əlavə dəstək alacaqlar.

"Avropa İttifaqı suveren, demokratik və müstəqil bir ölkə kimi Ermənistanın yanında möhkəm dayanır. Biz təkcə maliyyə dəstəyi vermirik, həm də Ermənistana qonşuları və Avropa ilə ticarəti asanlaşdırmağa kömək edirik. Bu, ən yaxın tərəfdaşlarımızdan birinə qarşı Avropa həmrəyliyinin praktik nümayişidir", - deyə Avropa Komissarı Marta Kos qeyd edib. O, Ermənistan hakimiyyəti ilə əməkdaşlıq çərçivəsində gələcək praktik addımları müzakirə etmək və ona daha da təkan vermək üçün 5 iyulda İrəvana səfər etməyi planlaşdırır.

Xatırladaq ki, 12 iyunda Rusiya Ermənistandan bütün bitki məhsullarının idxalını, eləcə də onların Rusiya ərazisindən Avrasiya İqtisadi Birliyinin (AAİB) digər ölkələrinə tranzitini tamamilə dayandırdı. Bu qərar Rosselxoznadzor tərəfindən qəbul edilib və o, artıq Ermənistanın fitosanitar sertifikatlaşdırma sisteminə etibar etmədiyini bildirib. Rəsmi açıqlamaya görə, Ermənistanın səlahiyyətli orqanının qeyri-kafi nəzarəti və səmərəsiz işi Rusiyanın və bütün Avrasiya İqtisadi Birliyinin (AAİB) kənd təsərrüfatı təhlükəsizliyini birbaşa təhdid edir. Xüsusilə, iyunun əvvəlində rusiyalı mütəxəssislər Ermənistana göndərilən qoz, quru şaftalı və pomidorlarda karantin zərərvericisi olan xapra böcəyini üç dəfə aşkar ediblər. Bundan əvvəl Moskva müəyyən istehsalçılardan Ermənistan balıq məhsullarının, çiçəklərinin, Cermuk mineral suyunun, konyakın və şərabın idxalını məhdudlaşdırmışdı. Diqqətəlayiq haldır ki, parlament seçkilərindən əvvəl Paşinyanın komandası Rusiyanın tətbiq etdiyi məhdudiyyətlərin Ermənistanda səsvermə başa çatan kimi sona çatacağını iddia edirdi. Onlar iddia edirdilər ki, Moskva sanksiyaları ilə seçki prosesinə müdaxilə etməyə çalışırdı.

"Problemlərin bəziləri 7 iyundan sonra təbii olaraq öz-özünə həll olunacaq. Onların hərəkətləri artıq mənalı olmayacaq, çünki onlar (müxalifət) seçkilərdə uduzacaqlar. Bundan əlavə, düşünürəm ki, problemlər həll olunacaq, çünki Ermənistan Avrasiya İqtisadi Birliyinin üzvüdür və bu, məntiqlidir", - deyə iqtisadiyyat naziri Gevorq Papoyan bildirib.

Bu arada, Ermənistan sahibkarları müstəqil şəkildə məhsulları üçün alternativ bazarlar axtarırlar. May ayında Ermənistan Gürcüstana 218 tondan çox gül və barama ixrac edib ki, bu da 750.000 dollar dəyərindədir və aylıq ixdal üçün tarixi rekord hesab olunur. Ermənistanın may ayında gül ixracı 2025-ci ilin eyni ayı ilə müqayisədə üç dəfə, 2026-cı ilin aprel ayı ilə müqayisədə isə 89% çox olub ki, bu da bu ilin mart ayında müəyyən edilmiş 129 tonluq əvvəlki rekordu üstələyib. Ermənistan Statistika İdarəsinin məlumatına görə, gül daşınmaları təkrar ixrac edilməyib, çünki Gürcüstan əvvəlki ayda qlobal bazarlara gül ixrac etməyib.

Lakin Ermənistan Mərkəzi Bankı hələlik nikbinlik yaymır. Tənzimləyici qurum Rusiyanın tətbiq etdiyi məhdudiyyətlərin ölkənin ÜDM-ni 2% azalda biləcəyini proqnozlaşdırır. Mərkəzi Bankın sədri Martın Qalstyanın sözlərinə görə, əsas sual sanksiyaların davam etməsi və ya Rusiya idxal və ixrac qaydalarını sərtləşdirməsi halında iqtisadiyyatın nə dərəcədə davamlı olacağıdır.

"Məsələn, bazarları dəyişdirə bilməsək və yalnız Rusiya bazarında qalsaq, inflyasiyamıza təsir Ermənistan daxilində təklifin artmasında əks oluna bilər. Nəticədə, xüsusilə tərəvəz, qazsız və qazlı mineral su, spirtli içkilər və çəyirdəkli meyvələr üçün müəyyən deflyasiya meylləri gözləyirik", - deyə Qalstyan izah edib.

O əlavə edib ki, bazarın şaxələndirilməsi mümkün olarsa və ixraca mənfi təsir göstərilməzsə, bu təsirlər daha yüngül olacaq. Spirtli içkilər kimi əsas ixrac olunan mallara gəldikdə, ixracın ümumi istehlakda payı yüksəkdir və Rusiyada qəbul edilən qərarlar birbaşa bu sektora təsir göstərir. Mərkəzi Bank rəhbərinin qeyd etdiyi kimi, ÜDM strukturunda ən həssas sektorlardan gələn gəlirlər təxminən 1,5%-dən 2%-ə qədərdir və buna görə də tənzimləyici bütün bu istehsal həcminin başqa yerdə yerləşdirilməsi mümkün olmadıqda və ya istehsal dayandırıldıqda maksimum 2%-lik təsirdən danışır.

***V.VƏLİLİ***

# Azərbaycan Ordusu güclü ordular sırasındadır

***1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da ordu quruculuğu istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.***



**İlham Qayıbzadə,**
**Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Binəqədi rayon filialının sədri, 2-ci qrup Qarabağ müharibəsi əlili**

Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Görkəmli siyasi xadim Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarı ilə yeni inkişaf mərhələsi sayıla bilər. Ümummilli Lider 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Müdafiə Sənayesi Nazirliyində müdafiə təyinatlı məmulatın istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindəndir. Bu nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Prezident cənab İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsinə, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə hər zaman xüsusi diqqət yetirilir.

Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri genişləndirilib.

Silahlı qüvvələrin modernləşdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin strateji istiqamətlərindəndir. Ölkəmizin son illərdə dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Prezidentin Ordu quruculuğu ilə əlaqədar öz vədinə sadiq olduğunu təsdiq edir.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir.Sözügedən qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Buna müvafiq olaraq büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin imkanları da genişlənir. Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olması həm də belə gərəkli və vaxtında aparılan islahatlarla bağlıdır. Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə cari ildə Milli Müdafiə Universiteti yaradılıb. Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır. Prezidentin 2022-ci il 5 mart tarixli fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edilib. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olunub, onun maddi-texniki bazası əsasında iki müstəqil institut yaradılıb: Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirəcək. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verilib.

Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə nəticələnən Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuz 2020-ci il 27 sentyabrda əks hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanıcanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu döyüş meydanında özünün üstünlüyünü sübut etdi. Düşmənin kapitulyasiyası ordumuzun gücü hesabına əldə olunmuş nəticədir.

Bu gün Azərbaycan Ordusunun gücünün beynəlxalq ictimaiyyət tərəfindən etiraf edilməsi qürurvericidir. Vətən müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir.

# Kənd təsərrüfatının inkişafında yeni dövr başlayır

***İqtisadiyyatın aparıcı qüvvəsi hesab olunan kənd təsərrüfatı yeni inkişaf dövrünə qədəm qoyur. Bu inkişafı sürətləndirən əsas amillərdən biri də münbit şəraitin olması və Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısıdır. Xüsusilə də Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı il mayın 25-də təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 2030-cu illər üçün Dövlət Proqramı" bu sahədə inkişafın sürətlənməsinə təkan verəcək.***



Ümumiyyətlə faktlar təsdiq edir ki, kənd təsərrüfatı sahəsində geniş və əhatəli işlər görülür. Nəticədə bölgələrə ərzaq təminatı yükləməklə yanaşı, əhalinin məşğulluğu da əhəmiyyəti dərəcədə artır. Təkcə ötən il rekord sayda uğurlu nəticələr qeydə alınıb. Bu barədə Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov ölkənin ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, su ehtiyatlarının səmərəli idarə olunması və ixrac potensialının artırılması fonunda qarşıda duran prioritet məsələlərlə bağlı yerli televiziya kanallarına verdiyi müsahibəsində bildirb. Nazir qeyd edib ki, 2025-ci il Azərbaycanın kənd təsərrüfatı üçün özünəməxsus, - həm iqlim təsirləri nöqteyi-nəzərindən, eyni zamanda, məhsul istehsalı və məhsuldarlıq baxımından, - bir il oldu. Bir sıra məhsullar üzrə məhsuldarlıqda rekord həcmlər, bəzi məhsullar üzrə isə azalma qeydə alındı:

"Ümumilikdə, kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil etdi. Qeyri-neft ümumdaxili məhsulunda isə 8,3 faiz paya malik oldu. Məhsul istehsalı aqrar sektorda 14,2 milyard manat təşkil etmişdi. Həmin vəsait isə bitkiçilik və heyvandarlıq arasında təxminən yarıbayarı bölünmüşdü. Bitkiçilik qismən daha az, heyvandarlıq isə daha çox idi. Ümumi daxili məhsulda ümumi artım 1 faizə yaxındır. Heyvandarlıqda bu, daha aşağı - 0,3 faiz, bitkiçilikdə isə 1,5 faiz artım müşahidə olunub. Əlbəttə, son illərdə aqrar sektordakı artımın müsbət olmasına baxmayaraq, dinamika aşağı doğru gedirdi və bu, özlüyündə ekstensiv artımın artıq öz resursunun limitlərinə çatdığını göstərirdi".

## 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı

Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov onu da bildirib ki, 2025-ci ildə pambıqçılıq üzrə ölkə tarixində rekord nəticə əldə olundu: bir hektardan 3,6 ton məhsul yığıldı. Bir çox bitkiçilik məhsulları üzrə məhsuldarlıq göstəriciləri artdı, lakin heyvandarlıq məhsulları üzrə isə göstəricilərimiz hələ də ürəkaçan halda deyil. Buna görə də cənab Prezident tərəfindən 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı qəbul edildi: "Həmçinin ixracat rəqəmlərinə də toxunmaq istəyirəm. 2025-ci il ixracat nöqteyi-nəzərindən aqrar sektor üçün uğurlu il oldu. Rekord həcmdə - 1,5 milyard dollarlıq məhsul ixracı həyata keçirildi. Bunun 1,1 milyard dolları məhz kənd təsərrüfatı sahəsində istehsal olunan məhsulların payına, 0,4 milyardı isə aqrar məhsullardan emal olunmuş yekun məhsulların payına düşür. İxracatda başqa bir müsbət dinamika isə odur ki, biz həm ixracat coğrafiyasının şaxələnməsini, həm də ixracat portfelində, məhsul portfelində genişlənməni müşahidə edirik. Əlbəttə ki, bunlar sevindiricidir. Amma hələ də görüləcək işlər var".

Nəticələrin ürəkaçan olması onu deməyə əsas veri ki, qarşıya qoyulan vəzifələr səmərəlli şəkildə yerinə yetirilir. Lakin bu nəticələrələ arxayınlaşmaq olmaz. Əksinə, yeni dövrün tələblərinə uyğun olaraq nailiyyətlər yenilənməlidir. Bunun üçün Azərbaycanımızın kifayət qədər potensialı da var. İşğaldan azad edilən ərazilərdə münbit torpaqların, axar suların olması ölkəmizdə kənd təsərrüfatının, balıqçılığın və akvakultura məhsullarının istehsalı və emalının genişlənməsinə imkan yaradır. Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə də müvafiq dövlət orqanlarının və yerli fermerlərin, eləcə də icra hakimiyyətlərinin qarşısına müvafiq vəzifələr qoyuldu.

## Kənd təsərrüfatının inkişafına böyük təkan

Müşavirədə çıxış edərkən Prezident İlham Əliyev bildirdi ki, bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir: "Məsələn, əgər pambıqçılığı götürsək, vaxtilə 70-80-ci illərdə pambıq istehsalı Azərbaycanda ildən-ilə artırdı, amma sonra müəyyən səbəblərə görə faktiki olaraq bu sahə əldən gedirdi. Həm məhsuldarlıq çox aşağı səviyyədə idi, təqribən hektardan maksimum bir ton, köhnə dillə desək 10 sentner. Azərbaycanda pambıq istehsalı 20 min tona düşmüşdü. Görülmüş tədbirlər, ildən-ilə aparılan islahatlar nəticəsində bu gün həm məhsuldarlıq, həm də istehsal artıb. Bu gün son nəticələrə görə 360 min tondan çox pambıq istehsal edilmişdi və pambıqçılıqda ixtisaslaşmış rayonlarda bunun kənddə yaşayan insanlar üçün çox böyük xeyri olmuşdur. Baramaçılıq faktiki olaraq əldən getmişdi. Görülmüş tədbirlər və dövlət dəstəyi nəticəsində biz baramaçılığı da bərpa etdik. Bununla bağlı olan ipəkçilik də inkişaf etməyə başlamışdı. Belə misallar çoxdur, yəni çox vaxt itirmək istəmirəm. Sadəcə olaraq, bildirməliyəm ki, bizim bir çox istiqamətlər üzrə nəzərdə tutduğumuz vəzifələr icra edildi. Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, Hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır. Bu gün müzakirə edəcəyimiz məsələlər bu proqramın qəbul edilməsi və icrası ilə bağlı olacaq. Mən əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir".

Prezident çıxışında təəssüf hissi ilə qeyd etdi ki, buğda əmsalı artmır: "Biz cəmi 55 faiz səviyyəsində özümüzü buğda ilə təmin edirik və əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymamalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır. Digər dənlilər üzrə vəziyyət prinsip etibarilə müsbətdir, özümüzü 95 faiz təmin edirik və idxal da çox cüzidir. Dənli paxlalar. Daxili istehsal 23 min ton, idxal 15 min ton. Yəni özümüzü təminetmə indeksi 63 faizdir. Kartof. Özümüzü 91 faiz təmin edirik, 160 min ton idxal edirik. Ancaq onu da bildirməliyəm ki, 71 min ton da ixrac edirik. Ona görə burada, yəni kəsir o qədər də böyük deyil. Kartof istehsalının artırılması üçün də imkanlar var və biz idxalı tamamilə aradan götürməliyik və həm özümüzü təmin etməliyik, eyni zamanda, daha böyük həcmdə ixrac etməliyik".

## Müşavirədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində geniş işlərə başlanılıb

Prezident İlham Əliyevin müşavirədə proqram xarakterli çıxışı ilə müvafiq dövlət qurumlarının rəhbərlərinin, fermerlərin, sahibkarların üzərinə bir sıra vəzifələr qoymuş oldu. Artıq müşavirədə qarşıya qoyulan vəzifələrin və "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 2030-cu illər üçün Dövlət Proqramı"nın yerinə yetirilməsi istiqamətin geniş işlərə başlanılıb. Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirovin Mil-Muğan iqtisadi rayonu üzrə regional müşavirədə qeyd etdiyi kimi Dövlət Proqramının icrası ilə bağlı İcra hakimiyyətləri qarşısında yeni vəzifələr qoyulub.

Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov regional müşavirədə bildirdi ki, icra hakimiyyəti başçıları Dövlət Proqramı əsasında aidiyyəti qurumların nümayəndələri ilə birlikdə aqrar sahənin əsas istiqamətləri üzrə hədəf göstəricilərini və nəticə indikatorlarını müəyyən etməli, hər bir rayonun 2026-2030-cu illər üçün sosial-iqtisadi inkişaf proqramının hazırlanmasını təmin etməlidirlər: "İcra başçıları yerlərdə sahibkarlığın və yerli istehsalçıların dəstəklənməsi, emal müəssisələrinin, taxıl silolarının (taxıl siloları buğda, arpa və qarğıdalı kimi taxıl məhsullarının uzun müddət təhlükəsiz, quru və xarici təsirlərdən (yağış, istilik, zərərvericilər) qorunaraq saxlanılması üçün nəzərdə tutulmuş xüsusi anbar qurğularıdır - red.) və soyuducu anbarların yaradılması, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, xüsusilə pambıqçılıq və taxılçılıqda məhsuldarlığın yüksəldilməsi ilə bağlı nəzərdə tutulan hədəflərə nail olmaq üçün bütün zəruri tədbirləri həyata keçirməlidirlər.

Onlar yerli imkanlardan istifadə etməklə Dövlət Proqramının fermerlər və sahibkarlar arasında təbliğini gündəlik fəaliyyətlərinin əsas istiqamətlərindən birinə çevirməli, bu işin təşkilatçıları qismində çıxış etməli, dövrün tələblərinə uyğun sistemli və kompleks tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər".

## "Özəl sektor aqrar inkişafın aparıcı qüvvəsinə çevrilməlidir"

Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov onu da bildirib ki, aparılan təbliğat işinin əsasını Prezidentin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışı təşkil etməlidir: "Şəhər və rayon icra hakimiyyətlərinin hər bir əməkdaşı, o cümlədən icra başçılarının ərazi nümayəndələri həmin çıxışı dərindən öyrənməli və təbliğat işlərini məhz bu istiqamətdə qurmalıdırlar. İcra başçıları bütün imkanları səfərbər etməklə sahibkarların və fermerlərin cənab Prezidentin çağırışına qoşulmaları üçün zəruri tədbirləri həyata keçirməlidirlər. Dövlət Proqramının icrası ilə bağlı təşkilati tədbirlərin həyata keçirilməsində əsas məsuliyyət yerli icra hakimiyyəti orqanlarının və bu sistemə daxil olan bütün qurumların üzərinə düşür".

Prezidentin köməkçisi qeyd edib ki, özəl sektor aqrar inkişafın aparıcı qüvvəsinə çevrilməlidir: "Prezident İlham Əliyevin dediyi kimi, özəl sektor nümayəndələrinin də Dövlət Proqramının icrasında xüsusi rolu olmalıdır. İnvestorları dəvət edirəm ki, bizdə bu gün idxal olunan məhsulların istehsalına onlar töhfə versinlər. Hesab edirik ki, aqrar sahədə fəaliyyət göstərən hər bir sahibkar cənab Prezidentin bu çağırışına qoşularaq ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılmasına öz töhfəsini verməlidir. İdxal olunan məhsulların ölkə daxilində istehsalının genişləndirilməsi və bununla da özünütəminetmə səviyyəsinin yüksəldilməsi bütün sahibkarlar üçün əsas vəzifələrdən biri olmalıdır.

Dövlət Proqramının icrasında cənab Prezident tərəfindən özəl sektorun rolunun xüsusi vurğulanması bir daha göstərir ki, kənd təsərrüfatının dayanıqlı inkişafı yalnız dövlət dəstəyi ilə deyil, fermerlərin, aqroparkların, emal müəssisələrinin, logistika şirkətlərinin, eləcə də texnologiya və müasir suvarma həlləri təqdim edən özəl sektor subyektlərinin fəal iştirakı ilə mümkündür. Beləliklə, qarşıdakı dövrdə özəl sektor yalnız istehsalçı kimi deyil, aqrar dəyər zəncirinin əsas iştirakçısı və aparıcı qüvvəsi kimi çıxış etməlidir. Fermer məhsul istehsal edir, emal müəssisəsi həmin məhsula əlavə dəyər yaradır, logistika və saxlama infrastrukturu məhsul itkilərini azaldır, ixracatçı isə məhsulu xarici bazarlara çıxarır. Nəzərə almaq lazımdır ki, bu zəncirin hər hansı bir həlqəsinin zəifləməsi və ya qırılması istehsalda əldə olunan nəticələrin tam iqtisadi dəyərə çevrilməsinə mane olur".

***İ.ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
26 iyun
2026-cı il

# Niyə bəzi xəstəliklər uzun müddət simptomsuz qalır?



***Tibbdə ən təhlükəli vəziyyətlərdən biri xəstəliyin uzun müddət heç bir əlamət vermədən inkişaf etməsidir. İnsan özünü sağlam hesab etdiyi halda orqanizmdə ciddi patoloji proseslər gedə bilər. Bu səbəbdən bir çox xəstəliklər gec mərhələdə aşkar olunur və müalicəsi çətinləşir. Bu fenomen yalnız konkret xəstəliklərlə bağlı deyil, bütövlükdə orqanizmin biologiyası, sinir sistemi, immun cavab və xəstəliyin inkişaf mexanizmi ilə əlaqəlidir. Bəzi hallarda simptomların olmaması xəstəliyin "yüngül" olmasını deyil, əksinə, səssiz və tədricən irəliləməsini göstərir. SİA mövzu ilə bağlı araşdırma edib.***

**ŞOK FAKTLAR...**

ARAŞDIRMA

### Simptom nədir və niyə yaranır?

Simptom - orqanizmdə baş verən pozğunluğa qarşı yaranan hiss olunan və ya müşahidə edilən reaksiyadır.

**Məsələn:**
- ağrı
- qızdırma
- halsızlıq
- öskürək

Bu reaksiyalar əslində bədənin "siqnal sistemi"dir. Lakin hər xəstəlik bu sistemi eyni şəkildə aktivləşdirmir.

### Bəzi xəstəliklər niyə simptomsuz qalır?

Bütün orqanlarda ağrı reseptorları eyni səviyyədə deyil.

**Məsələn:**
- qaraciyər və böyrəklərdə ağrı hissi zəifdir
- bəzi daxili orqanlarda erkən mərhələdə ağrı yaranmır

Bu səbəbdən həmin orqanlarla bağlı xəstəliklər uzun müddət hiss olunmaya bilər.

### Xəstəliyin yavaş inkişaf etməsi niyə vacib amildir?

Bəzi xəstəliklər çox yavaş inkişaf edir.
Orqanizm bu dəyişikliklərə:
- tədricən uyğunlaşır
- kompensasiya mexanizmləri işə düşür

Nəticədə insan heç bir narahatlıq hiss etmir.

**Bu xüsusilə:**
- yüksək təzyiq
- şəkərli diabet
- bəzi xərçəng növləri üçün xarakterikdir.

### İltihab reaksiyası hər zaman yaranmırmı?

Bir çox simptomlar iltihabla bağlıdır.
Lakin bəzi xəstəliklər:
zəif iltihabla gedir
və ya ümumiyyətlə iltihab yaratmır
Bu isə simptomların olmamasına səbəb olur.

### Simptomsuz gedən xəstəliklərə hansı nümunələr var?

Hipertoniya illərlə heç bir əlamət vermədən davam edə bilər.
İnsan yalnız:
ürək
beyin
damar zədələnməsi
baş verdikdə problem olduğunu anlayır.

### Şəkərli diabet erkən mərhələdə niyə hiss olunmur?

2-ci tip diabet uzun müddət simptomsuz qala bilər.

**Bu müddətdə:**
- qan şəkəri yüksəlir
- damar və sinirlər zədələnir

Lakin xəstə bunu hiss etmir.

### Xərçəng xəstəlikləri niyə gec aşkarlanır?

**Bir çox xərçəng növləri:**
ilkin mərhələdə ağrı vermir
yalnız böyüdükdə simptom yaradır
Bu isə erkən diaqnozu çətinləşdirir.

### Gec diaqnoz niyə təhlükəlidir?

**Əlamətlər olmadıqda:**
- həkimə müraciət gecikir
- xəstəlik inkişaf edir
- müalicə çətinləşir

Bu, xüsusilə xroniki və onkoloji xəstəliklərdə ciddi problemdir.

### Gizli inkişaf hansı fəsadlara gətirir?

**Simptomsuz xəstəliklər:**
orqan zədələnməsinə
funksiyanın itirilməsinə
qəfil ağırlaşmalara
səbəb ola bilər.

### Simptomsuz xəstəlikləri necə aşkar etmək olar?

**Bu tip xəstəlikləri aşkar etməyin əsas yolu:**
müntəzəm tibbi yoxlamalar
laborator analizlər
skrininq proqramlarıdır
Çünki simptom gözləmək gec ola bilər.

### Hansı analizlər erkən diaqnoz üçün önəmlidir?

qan analizləri
şəkər səviyyəsi
təzyiq ölçülməsi
ultrasəs və digər görüntüləmə üsulları
Bu üsullar xəstəliyi erkən mərhələdə aşkar edə bilər.

### Simptomsuzluq həmişə təhlükəlidirmi?

Bəzi hallarda yox.
Çünki:
hər dəyişiklik xəstəlik deyil
bəzi vəziyyətlər müvəqqəti və zərərsiz ola bilər
Lakin risk ondadır ki, ciddi xəstəliklər də eyni şəkildə səssiz inkişaf edə bilər.

### Passiv həyat tərzi və qidalanma təsir edirmi?

fiziki aktivliyin azlığı qeyri-sağlam qidalanma stress simptomsuz gedən xroniki xəstəliklərin artmasına səbəb olur.
Texnologiya və tibbi nəzarət rolu
Maraqlıdır ki:
bir tərəfdən risklər artır
digər tərəfdən diaqnostika imkanları genişlənir
Bu isə erkən aşkarlama şansını artırır.

### İnsanlar niyə simptomsuz olduqda həkimə getmir?

Bu, daha çox psixoloji və sosial faktorlarla bağlıdır.
Əsas səbəblər:
"özümü yaxşı hiss edirəm" düşüncəsi
vaxt çatışmazlığı
tibbi müayinədən çəkinmə
riskləri düzgün qiymətləndirməmək
Bu yanaşma isə gec diaqnoz riskini artırır.

### Erkən diaqnozla gec diaqnoz arasında fərq nə qədər böyükdür?

Fərq çox kəskindir.
Erkən mərhələdə:
müalicə daha sadə olur
uğur faizi yüksək olur
xərclər daha az olur
Gec mərhələdə isə:
müalicə çətinləşir
ağırlaşma riski artır
həyat keyfiyyəti ciddi azalır
Bu fərq xüsusilə xərçəng və ürək-damar xəstəliklərində aydın görünür.

### Hər kəs üçün profilaktik yanaşma necə olmalıdır?

Mütəxəssislər aşağıdakı yanaşmanı tövsiyə edir:
ildə ən azı 1 dəfə ümumi tibbi müayinə
risk faktorlarına uyğun əlavə yoxlamalar
qan təzyiqi və şəkərin müntəzəm nəzarəti sağlam həyat tərzi
Bu yanaşma simptomsuz gedən xəstəliklərin erkən aşkarlanmasında əsas rol oynayır.

***Günel Fərzəliyeva***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**